**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**TƏHMİNƏ KAMRAN QIZI BƏDƏLOVA**

# MƏHCUR ŞİRVANİNİN HƏYAT VƏ YARADICILIĞI

5716.01. – Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI-2013**

Dissertasiya AMEA Gəncə Regional Elmi Mərkəzin Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Xəlil Həmid oğlu Yusifli**
*filologiya üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi*

**Rəsmi opponentlər:** **Nizami Qulu oğlu Cəfərov**
*AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor*

**Mahirə Həmid qızı Quliyeva**
*filologiya üzrə elmlər doktoru*

**Aparıcı təşkilat:** **M.Füzuli ad. Əlyazmalar İnstitutunun “Türkdilli əlyazmaların tədqiqi” şöbəsi**

Müdafiə "__21__" 10__ 2013-cü il saat _____-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdindəki D.01.131 – Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az-1143, Bakı, H.Cavid prospekti, 31, V mərtəbə, AMEA Nizami adına Ədəbiyyat İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" _________ 2013-cü ildə göndərilmişdir.

Dissertasiya
Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru: **İmamverdi Yavər oğlu Həmidov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XVII əsrin sonu XVIII yüzilliyin əvvəlləri Azərbaycan tarixinin ən keşməkeşli və ziddiyyətli, eyni zamanda əhəmiyyətli dövrlərindən biridir. Mövcud durum təbii ki, həmişə dövrün, mühitin "ayinəsi" olan, tarixi salnamələrdən daha etibarlı və səmimi mənbə rolunu oynayan ədəbiyyatın da inkişafına öz təsirini göstərirdi. Elə təkcə onu qeyd etmək kifayətdir ki, əvvəlki əsrlərdən fərqli olaraq XVIII əsrdə yaşayan heç bir şairin küll halında divanı qalmamışdır. Təbii ki, bu da həmin dövr ədəbi mühitini tam və əhatəli təhlilə cəlb etməkdə müəyyən çətinliklər yaratmışdır.

Ancaq bütün bu çətinlıiklərə baxmayaraq, XVIII əsr Azərbaycan ədəbiyyatı özünəməxsus bir yolla inkişaf etmiş, ədəbi irsimizə bəxş etdiyi töhfələrlə onu daha da zənginləşdirmiş və ən əsası isə ədəbiyyatımıza gətirdiyi yeni nəfəs, yeni məzmun və mündəricə xüsusiyyətləri ilə ictimai-siyasi və ədəbi-bədii düşüncə tariximizdə yeni dövr hesab olunan XIX əsr ədəbi hadisəsi üçün bir zəmin hazırlamışdır.

XVIII əsr ədəbi həyatını səciyyələndirən ən mühüm yeniliklər sırasında artıq ədəbiyyatımızda sanki bir buxova çevrilən, onu təqlidçilik və nəzirəçilik "azarından" qurtulmağa qoymayan orta əsrlər poeziyasının qanun-qaydalarından xilas olan lirikanın xalq şeirinə, ozan-aşıq poeziyasına üz tutması, ondan bəhrələnməsi və bununla da xalq həyatına yaxınlaşması, onun maraqlarına daha çox toxunması və s. kimi mühüm ədəbi hadisələri göstərmək olar.

Təbii ki, bütün bu yeniliklər dövrün hər bir sənətkarı kimi Məhcur Şirvaninin də yaradıcılığında öz əksini tapmışdır. Lakin şairin yaradıcılığı indiyədək geniş elmi-tədqiqat obyektinə çevrilə bilməmiş, M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunan cünglərdə Məhcurun xeyli şeirləri əks olunsa da, əsərlərinin yalnız az bir hissəsi nəşr edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, Məhcurun əlyazması halında olan şeirləri əməkdar elm xadimi, prof. X.Yusifli tərəfindən transliterasiya edilmişdir və tədqiqat zamanı həmin əsərlərdən də istifadə olunmuşdur.

XVIII əsrin sonlarından başlayaraq ayrı-ayrı cüng tərtibçiləri və daha sonra isə naşirlər şairin əsərlərinə müraciət etsələr də, bu nəşrlərin[1]

[1] Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir. 4 clldə. III c. Tərtib edən Hüseyn Əfəndi Qaibov. Bakı, "Mütərcim", 2002. (Bu kitabların son nəşr variantları

deмək olar ki, hamısı bir-birini təkrarlamış və onun yaradıcılığının çox az bir hissəsini əhatə etmişdir. Azərbaycan ədəbiyyatı tarixinin müvafiq dövrünə aid aid ayrı-ayrı dərslik[1] və monoqrafiyaların[2] bəzilərində şairin adı çəkilmiş, bəzilərində isə "Qisseyi-Şirzad" məsnəvisindən ümumi şəkildə bəhs edilsə də, lirik yaradıcılığının üstündən sükutla keçilmiş, çox vaxt isə F.Köçərlinin məşhur "...tərcibənd-kəlamı ki, həbibi-yarın fəraqında yazılıbdır, - onun rəvantəb bir şair olmağına dəlalət eləyir"[3] - ifadəsini sitat gətirməklə kifayətlənmiş və yaxud da dövrün ədəbi-bədii mühitinin ümumi təhlili axınında Məhcurun da əsərlərindən tək-tək nümunələr verilmişdir. Mövzunun aktuallığını şərtləndirən əsas amillərdən biri də məhz Məhcur Şirvaninin *lirik yaradıcılığının* istər nəşr, istərsə də tədqiq baxımından (küll halında) indiyədək ədəbiyyatşünaslıq elmimiz üçün qaranlıq qalmasıdır.

Digər tərəfdən, daha çox Vaqif, Vidadi yaradıcılıqları üzərində təhlil olunan XVIII əsr ədəbiyyatı xəlqiləşməyə, sadələşməyə doğru meyil etdiyi üçün tədqiqatçılar burada təsəvvüf və irfan məsələlərindən bir növ yan keçiblər. Ümumiyyətlə, bu dövr ədəbi mühitinə aid əksər tədqiqatlarda[4] sufizmin yalnız az-az görünən formal xarakteri daha çox vurğulanmışdır. Halbuki xalqımızın təfəkkür və düşüncə xəzinəsinə güclü təsir göstərən, onu zənginləşdirən, eyni zamanda onda yeni çalar, yeni rəng alan sufizm

---

göstərilmişdir.) 252 səh. Köçərli Firidun bəy. Azərbaycan ədəbiyyatı. 2 cilddə. I c. Bakı, "Avrasiya Press", 2005. 560 səh. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. III c. Tərtib və ön sözün müəllifi C.Qəhrəmanov. Bakı, "Şərq-Qərb", 2005. 456 səh. XIII-XVIII əsrlər Azərbaycan poeziyasından seçmələr. Tərtib, ön söz və çevirmələrin müəllifi X.Yusifli. Bakı, Oka Ofset Nəşriyyat-Poliqrafiya Şirkəti, 2007. 422 səh. Azərbaycan qəzəlləri. Tərtib və ön sözün müəllifi Məmməd Nuruoğlu. Bakı, Azərnəşr, 1991. 624 səh. Hikmət xəzinəsi. (Qədim Azərbaycan ədəbiyyatı müntəxəbatı). Tərtib edənlər Əlyar Səfərli, Xəlil Yusifli. Bakı, "Maarif" nəşriyyatı, 1992. 556 səh. Məhcur Şirvani. Hamid. Qisseyi-Şirzad. Seyfəlmülük. Tərtib, ön söz və lüğətin müəllifi Əlyar Səfərli. Bakı, Gənclik, 1985. 84 səh.və s.

[1] Araslı Həmid. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi. Bakı, Azərbaycan Universiteti Nəşriyyatı, 1956. 328 səh. Səfərli Əlyar, Yusifli Xəlil. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər). Bakı, "Ozan", 2008. 696 səh.

[2] Dadaşzadə Məmməd Arif. Azərbaycan xalqının ədəbiyyatı. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1958. 84 səh. Dadaşzadə Araz. XVIII əsr Azərbaycan lirikası. Bakı, "Elm" nəşriyyatı, 1980. 228 səh. Cəfərov Nizami. Füzulidən Vaqifə qədər. Bakı, "Yazıçı", 1991. 168 səh. Səfərli Əlyar. XVII-XVIII əsrlər Azərbaycan epik şeiri. Bakı, Yazıçı, 1982. 206 səh.

[3] Köçərli Firidun bəy. Azərbaycan ədəbiyyatı. 2 cilddə. I c. Bakı, "Avrasiya Press", 2005. səh.486.

[4] Dadaşzadə Araz. XVIII əsr Azərbaycan lirikası. Bakı, "Elm" nəşriyyatı, 1980. 228 səh.

fəlsəfəsi XVIII əsr Azərbaycan ədəbiyyatının nümayəndəsi olan Məhcur Şirvaninin əsərlərində hissolunacaq izlər buraxmışdır. Odur ki, həm Məhcur Şirvani yaradıcılığında, həm də XVIII əsr Azərbaycan ədəbiyyatında təsəvvüf fəlsəfəsinin izlərinin öyrənilməsi ədəbiyyatşünaslığımız üçün aktual məsələlərdəndir.

Məhcurun "Qisseyi-Şirzad" məsnəvisindən bəhs edən tədqiqatçılar[1] əsasən süjet xətti boyunca əsərin məzmununu izləyərək poemanın mövzusu, ideyası, qəhrəmanları haqqında ümumi məlumatla kifayətlənmişlər. Odur ki, əsərin hərtərəfli elmi təhlili, ideya-mövzu qaynaqlarının araşdırılması, nağıl-dastan ənənələrinin təsiri və s. problemlərin həlli də aktual məsələlərdəndir.

Bədii yaradıcılıq sənətkar şəxsiyyətinin və həyatının güzgüsüdür. Lirikada şair "mən"i və lirik qəhrəman çox vaxt eyni məfhum anlamına gəlir və istər-istəməz şairin həyatı və dünyaya baxışı orada müəyyən dərəcədə əks olunur. Həyatı haqqında mənbələrdə heç bir məlumat olmayan Məhcur Şirvani bədii əsərlərində də həyatı ilə bağlı nəzərəçarpacaq bilgi verməmişdir. Ancaq bəzi işarələr əsasında şairin həyatına dair ayrı-ayrı məqamları aydınlaşdırmaq mümkündür. Bu baxımından da şairin yaradıcılığının öyrənilməsi olduqca aktualdır.

Zənnimizcə, qarşıya qoyulan bu məsələlər M.Şirvaninin yaradıcılığı ilə yanaşı Azərbaycan ədəbiyyatının müvafiq mərhələsinə aid bəzi qaranlıq mətləbləri də aydınlaşdıracaqdır.

**Mövzunun tədqiq səviyyəsi:** Azərbaycan ədəbiyyatşünaslı-ğında Məhcur Şirvanidən ilk dəfə H.Araslı bəhs etmişdir[2]. Alim şairin lirik yaradıcılığından ötəri bəhs edərək əsasən "Qisseyi-Şirzad" məsnəvisi haqqında fikir və mülahizələrini bildirmişdir. Daha sonra isə Ə.Səfərli "XVII-XVIII əsrlər Azərbaycan epik şeiri"[3] monoqrafiyasında poemanın ideya-mövzu xüsusiyytələrini təhlilə cəlb etmiş, ayrı-ayrı surətlərin səciyyəsini vermişdir. A.Dadaşzadə, N.Cəfərov[4] müvafiq dövrün ədəbi-bədii prosesindən, dil xüsusiyyətlətindən bəhs edərkən XVIII əsrin digər ədibləri ilə yanaşı Məhcurun da əsərlərinə müraciət etmişlər.

---

[1] Araslı Həmid. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi. Bakı, Azərbaycan Universiteti Nəşriyyatı, 1956. 328 səh. Səfərli Əlyar. XVII-XVIII əsrlər Azərbaycan epik şeiri. Bakı, Yazıçı, 1982. 206 səh.

[2] Araslı Həmid. Məhcur Şirvani və onun "Qisseyi-Şirzad" əsəri. // ADU Əsərləri, filoloji seriya, II buraxılış, 1947. Səh. 51-57.

[3] Səfərli Əlyar. XVII-XVIII əsrlər Azərbaycan epik şeiri. Bakı, Yazıçı, 1982. 206 səh.

[4] Dadaşzadə Araz. XVIII əsr Azərbaycan lirikası. Bakı, "Elm" nəşriyyatı, 1980. 228 səh. Cəfərov Nizami. Füzulidən Vaqifə qədər. Bakı, "Yazıçı", 1991. 168 səh.

Bu sətirlərin müəllifi də “Məhcur Şirvaninin “Gəl, vəqtdir” şeirinin janr xüsusiyyətləri” (prof. X.Yusifli ilə birlikdə) (AMEA “Xəbərlər” (Humanitar elmlər seriyası) №1, 2010), “Məhcur Şirvani yaradıcılığında sufizmin izləri”, (“Turan”. Stratejik Araştırmalar Merkezi. Uluslararası Hakemli Mevsimlik Dergi. Sayı:8, 2010) “Məhcur Şirvani şeirində dünyəvilik” (BDU “Dil və ədəbiyyat”. Beynəlxalq elmi-nəzəri jurnal. №1(77), 2011), “Ağlar mənim əhvalimə qəbrimdə bitən gül” (Azərbaycan Yazıçılar Birliyi “Azərbaycan” (Ədəbi-bədii jurnal) Aprel, 2011), “Məhcur şeirinin Məcnun dərdi” (AMEA Əlyazmalar İnstitutu “Filologiya məsələləri”. № 6, 2011) və s. məqalələri ilə çıxış edərək şairin həyat və yaradıcılığının ayrı-ayrı məqamlarına aydınlıq gətirməyə çalışmışdır.

**Tədqiqatın predmeti:** Tədqiqat işində XVIII əsr Azərbaycan ədəbiyyatının nümayəndəsi olan M.Şirvaninin həyat və yaradıcılığının küll halında öyrənilməsi, eyni zamanda bəhrələndiyi və varisi olduğu özündən əvvəlki irsə, eləcə də müasiri olduğu ədəbi-bədii mühitə münasibətinin araşdırılması və şairin yaradıcılığını fərqləndirən özəl xüsusiyyətlərin səciyyələndirilməsi, bununla da ədəbiyyat tarıximızdə Məhcurun yerinin və rolunun müəyyənləşdirməsi nəzərdə tutulmuşdur. Bunun üçün Məhcurun lirik və epik yaradıcılığının rəngarəng ideya-mövzu çalarlarını və sənətkarlıq xüsusiyyətlərini tədqiq etmək bu elmi araşdırmanın əsas predmetidir.

**Tədqiqatın obyekti**: Aparılan araşdırmanın obyekti Məhcur Şirvanin lirik şeirləri və “Qisseyi-Şirzad” məsnəvisidir. Bunun üçün şairin həm klassik lirikanın müxtəlif janrlarında yazılmış əsərləri, həm də “Qisseyi-Şirzad” poeması diqqətlə öyrənilmişdir. Şairin yaradıcılığına daha düzgün qiymət vermək üçün sələf-xələf münasibətlərinə xüsusi diqqət yetirilmiş, yeri gəldikcə özlərinəməxsus məktəb yaratmış böyük Füzuli irsi və Vaqif poeziyası ilə Məhcurun lirik yaradıcılığının müqayisəli təhlili aparılmış, dəyərləndirilmişdir. Şairin məsnəvi yaradıcılığının ideya-mövzu mənbələrinin düzgün müəyyənləşdirilməsi üçün xalq nağılllarımızla və böyük epik abidəmiz olan “Kitabi-Dədə Qorqud”la, eləcə də dahi Azərbaycan şairləri Nizami Gəncəvi, Məhəmməd Füzuli, Fədai və Məsihinin poemaları ilə müqayisəli paralellər aparılmışdır. Tədqiqat zamanı ayrı-ayrı məsələlərin daha yaxşı anlaşılması və irəli sürülən fikirlərin əsaslandırılması üçün XVIII əsr ədəbi mühitinə həsr edilmiş tədqiqat və monoqrafiyalara da müraciət edilmiş, H.Araslı, A.Dadaşzadə, Ə.Səfərli və b. tədqiqatçıların araşdırmaları da tədqiqatın obyektlərindən olmuşdur.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** müasir Azərbaycan ədəbiyyatşünaslarının əsərlərində işlənilən, gözlənilən prinsiplər təşkil etməkdədir. Apardığımız araşdırma zamanı ənənəvi mənbəşünaslıq metodologiyasından, tipoloji təhlil üsulundan və tarixi-müqayisəli yanaşma prinsipindən istifadə edilmişdir

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqatın əsas məqsədi XVII əsrin sonu-XVIII əsrin əvvəllərində yaşayıb-yaratmış Azərbaycan şairi Məhcur Şirvaninin həyatı, yaradıcılığı və ədəbi irsini (qeyri-mətbu əsərləri də daxil olmaqla əldə edilən bütün əsərlərini) dövrün ədəbi mühitinin ayrılmaz bir hissəsi kimi, eyni zamanda zəngin ədəbi irsdən faydalansa da, orijinal bir hadisə olaraq tədqiqata cəlb etmək, şairin nəinki geniş oxucu kütləsi, həmçinin ədəbiyyatşünaslığımızın özünə də az məlum olan həyat və yaradıcılığının qaranlıq məqamlarına işıq salmaq, ədəbiyyatımızda Məhcurun yerini, rolunu və mövqeyini düzgün qiymətləndirməkdən və bunun üçün də şairin bütün əsərlərini ideya-fikir xüsusiyyətlərinə, sənətkarlıq məziyyətlərinə görə təsnif edərək ayrı-ayrılıqda öyrənməkdən ibarətdir. Bu məqsədlə aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulmuşdur:

- XVII əsrin sonu XVIII əsrin əvvəlləri Azərbaycan tarixi gerçəkliyini və bu gerçəkliyin ədəbi-mədəni mühitə təsiri məsələlərini yeni təfəkkür süzgəcindən keçirmək;
- Azərbaycan tarixində orta əsrlərin son dövrü hesab olunan XVIII əsrin ədəbi-bədii təfəkkür axınının özəlliklərini və ədəbiyyatımıza gətirdiyi yeni poetik ab-havanı, bir sözlə, Məhcurun yetişdiyi ədəbi mühiti dəyərləndirmək;
- Başqa bir mənbə olmadığı üçün öz əsərlərindən çıxış edərək Məhcurun həyatının bəzi məqamlarına aydınlıq gətirmək;
- Şairin əsərlərinin toplanması, nəşri və tədqiqi məsələlərilə bilavasitə və ya dolayısı ilə bağlı olan materialları araşdırmaq, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda mövcud olan əlyazma cünglərdəki Məhcur Şirvaniyə aid edilən şeirləri toplayıb sərf-nəzər etmək;
- Məhcurun istər əlyazması, istərsə də çap olunmuş lirik əsərlərini tam halda götürərək şairin ideya-mövzu axtarışlarını sələflərinin və müasirlərinin yaradıcılıqları ilə müqayisəli şəkildə elmi təhlilə cəlb etmək və onun ədəbiyyatımızdakı yerini və mövqeyini düzgün qiymətləndirmək;
- Məhcurun lirik yaradıcılığını klassik Şərq poetika elminin örnəkləri əsasında tədqiqata cəlb etmək və şairin şeirlərinin sənətkarlıq və janr xüsusiyyətlərini, ədəbi metodu problemini araşdırmaq;

- Məhcurun “Qisseyi-Şirzad” məsnəvisini xalq nağıllarımız və möhtəşəm qəhrəmanlıq eposu “Kitabi-Dədə Qorqud” ilə, eləcə də yazılı ədəbiyyatımızın klassik epik abidələri ilə müqayisəli şəkildə öyrənmək və əsərin epik janr nümunəsi kimi əhəmiyyətini, fərqli və orijinal cəhətlərini müəyyənləşdirmək;
- Məhcurun klassik poetika qanun-qaydalarından, söz və məna incəliklərindən bəhrələnməsi, lirik və epik yaradıcılığında onlardan məharətlə istifadə etməsi məsələlərinə aydınlıq gətirmək;
- Bütün bu mətləblərin tədqiqində daha doğru yol tuta bilmək üçün mövcud tədqiqatlardan bəhrələnməyə çalışmaq.

**Tədqiqatın elmi yeniliyi:** İlk dəfə məhz bu tədqiqatda Məhcurun həyatının ayrı-ayrı məqamları haqqında məlumat verilmiş, şairin ədəbi irsinin nəşri və tədqiqi tarixi izlənilmişdir.

İlk dəfə olaraq Məhcurun lirik yaradıcılığı sistemli şəkildə elmi tədqiqata cəlb edilmiş, şeirlərinin ideya-mövzu xusüsusiyyətləri, janr özəllikləri araşdırılmışdır. Şairin lirik yaradıcılığının klassik poetika qanunları əsasında, həm özündən əvvəlki, həm də müasiri və yaradıcısı olduğu dövrün ədəbi prosesi ilə qarşılıqlı və müqayisəli şəkildə araşdırılması bizim tədqiqatın əsas elmi yeniliyidir. Xüsusilə, şairin indiyədək müxtəlif janr adları altında (tərcibənd, müsəmmət, müəşşər) təqdim olunan “Gəl, vəqtdir” rədifli şeirinin janr xüsusiyyətləri geniş şərh edilmiş, klassik şərq poetika elminin nümayəndələrinin əsərlərinə istinad edilərək əsərin dəqiq janr sərhədləri müəyyənləşdirilmişdir.

Qeyd etmək lazımdır ki, indiyədək bu dövrün ədəbiyyatından bəhs edən tədqiqatlarda,[1] ümumiyyətlə, XVIII əsr poeziyasında sufizmdən danışmağın mənasız olduğu vurğulanırdı. Məhcurun lirikasında müşahidə olunan və digər müasirlərindən fərqli olaraq daha aydın şəkildə nəzərə çarpan təsəvvüf fəlsəfəsinin, sufizmin izləri, sevgi mövzusu içində gizlənmə, gözəllik həsrətinin tərənnümü ilə iç dünyasını ifadə və s. motivlər bunun tam əksini isbat edir. Bu həqiqəti konkret nümunələr əsasında tədqiq etmək və dəyərləndirmək bu araşdırmanın əsas elmi yeniliklərindəndir.

Məhcur klassik ədəbi ənənələr üzərində yetişsə də, öz dövrünün oğlu idi və dövrün ədəbi mühitindəki yeniliklər, o cümlədən ozan-aşıq poeziyasından gələn motivlərin daha geniş yayılması, şeirin mövzu və dil baxımından xalqa yaxınlaşması, əvvəlki əsrlərlə müqayisədə

[1] Dadaşzadə Araz. XVIII əsr Azərbaycan lirikası. Bakı, “Elm” nəşriyyatı, 1980. 228 səh.

müxəmməsin daha çox işlənməsi və s. onun da poeziyasından yan keçməmişdir. Əgər Məhcurun ilahi eşqi tərənnüm edən, sevgilinin vəfasızlığından, hicran dərdindən, vüsal həsrətindən bəhs edən şeirləri Füzuli poeziyası ilə səsləşirsə, dünyəvi ruhlu, daha çox gözəlləmə xarakterli şeirləri isə Vaqif yaradıcılığı ilə müqayisə oluna bilər. Məlumdur ki, indiyədək orta əsrlər Azərbaycan poeziyasında dünyəvi şeir deyərkən yalnız Vaqif yaradıcılığı nəzərdə tutulmuşdur. Ancaq Məhcurun şeirlərinin təhlili göstərir ki, o da "orta əsrlər ədəbiyyatı üçün qadağan edilmiş hesab olunan mövzularda", hətta Azərbaycan ədəbiyyatında dünyəvi şeirin "yaradıcısı" hesab olunan Vaqifin əsərləri ilə müqayisə oluna biləcək səviyyədə maraqlı əsərlər yaratmağa nail olmuşdur. Bu nümunələrin araşdırılması və faktlarla əsaslandırılması da tədqiqatın elmi yeniliklərindən hesab oluna bilər.

Tədqiqatda Məhcur Şirvaninin "Qisseyi-Şirzad" poeması ilk dəfə olaraq xalq nağıl və dastanlarımızla, yazılı ədəbiyyatımızdakı digər poemalarla müqayisəli şəkildə təhlil olunmuş, əsərlərinin bədii-poetik və janr xüsusiyyətləri də araşdırılmışdır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti:** Bu tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti birinci növbədə mövzunun aktuallığı, onun ilk dəfə bu araşdırmada sistemli və bütöv tərzdə öyrənilməsi ilə müəyyənləşir. Klassik irsin, onun ayrı-ayrı nümayəndələrinin yaradıcılığının öyrənilməsi ədəbiyyat tariximizin bütövlüyü, tamlığı və ədəbi-bədii inkişaf prosesinin inkişaf xüsusiyyətləri və qanunauyğunluqlarını aydınlaşdırmaq baxımından həmişə böyük önəm verilən məsələlərdən olmuşdur. Heç təsadüfi deyil ki, klassiklərimizin əsərləri ilbəil təkrar-təkrar nəşr olunur. Bu tədqiqatda indiyədək sanki kölgədə qalmış Məhcur Şirvani imzasına məxsus əsərlər geniş şəkildə təhlil edilir, həyat və yaradıcılığının bir sıra məqamları, o cümlədən lirik şeirləri işıqlandırılır, şairin Azərbaycan ədəbiyyatında yeri və mövqeyi araşdırılır. Bu isə təkcə Məhcur Şirvani yaradıcılığının deyil (çünki ədəbi-bədii yaradıcılığı əlahiddə şəkildə alıb öyrənmək mümkün deyil), ümumilikdə orta əsrlər Azərbaycan ədəbiyyatının bəzi məsələlərinə aydınlıq gətirmiş olur ki, bütün bunlar mühüm nəzəri əhəmiyyət kəsb edir.

Araşdırmanın bütün dərəcələrdən olan, xüsusilə də filoloji təhsil, tədris və tədqiqatla məşğul olan tədqiqatçılar üçün, eləcə də orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi üzrə müəyyən mövzuların tədrisində yardımçı olacağına inanırıq. Güman edirik ki, tədqiqat boyu qarşıya çıxan problemlərin çözümü həm M.Şirvani irsinin öyrənilməsində, həm də

XVIII əsr Azərbaycan poeziyası üçün önəmli məsələlərin həllində əhəmiyyətli mənbələrdən olacaq.

**Tədqiqatın mənbələri**: Dissertasiyanın hazırlanmasında Məhcurun AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan əlyazma cünglərdəki[1] şeirlərindən, çap olunmuş əsərlərindən, Azərbaycan, türk, fars və rus nəzəriyyəçi və ədəbiyyatşünaslarının mövzu ilə birbaşa və ya müəyyən dərəcədə bağlı tədqiqatlarından və müxtəlif elmi-nəzəri ədəbiyyatlardan, eləcə də klassik Azərbaycan şairlərinin bədii yaradıcılıq nümunələrindən istifadə olunmuşdur.

**Tədqiqat işinin aprobasiyası**: Dissertasiyanın mövzusu Gəncə Regional Elmi Mərkəzin Azərbaycan ədəbiyyatı şöbəsində müəyyənləşdirilmiş, Gəncə Regional Elmi Mərkəzin Elmi Şurasında təsdiq edilmiş, daha sonra isə AMEA Nizami adına Ədəbiyyat İnstitutu yanında Ədəbiyyatşünaslıq üzrə Problem şurasının 15 may 2009-cu il tarixli iclasında (protokol №1) təsdiq olunmuşdur. Tədqiqat işi AMEA GREM-in Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın yazılan hissələri AMEA GREM-in Azərbaycan ədəbiyyatı şöbəsinin iclaslarında və elmi seminarlarda müzakirə edilmiş, dissertasiyanın əsas elmi müddəa və nəticələri şöbənin və GREM-in Elmi Şurasının zəmanəti ilə respublika daxilində və xaricdə müxtəlif elmi dərgi və tematik toplularda, eləcə də elmi konfrans materiallarında dərc edilmiş məqalələrdə öz əksini tapmışdır. Mövzu üzrə on dörd məqalə və bir monoqrafiya nəşr olunmuşdur.

Dissertasiyanın son variantı 16 Sentyabr 2011-ci il tarixdə şöbənin genişlənmiş iclasında (protokol №09) müzakirə edilərək müdafiəyə hazır olduğu bildirilmiş və müdafiə olunmaq üçün Nizami adına Ədəbiyyat İnstitutu nəzdindəki D.01.131 - Dissertasiya Şurasına göndərilmişdir.

**Dissertasiyanın quruluşu**: Dissertasiya Azərbaycan Respublikası Prezidenti yanında AKK-ın təlimatına uyğun formada yazılmışdır. Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

---

[1] . AMEA M.Füzuli ad. Əlyazmalar İnstitutu. Cüng: Б-208/1826; Б-2228/3147; Б-1812/3737; Б-1987/3145; Б-75/2939; Д-288/7670; Б-1760/1547; А-314/3001; А-67/10563; Фр-1552/3897; Б-1335/10541; А-222/10542; Б-5154/16836; А-73/5408; Б-1762/10552; Б-1964/3859.

## DİSSERTASİYA İŞİNİN MƏZMUNU

Tədqiqatın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun tədqiq olunma səviyyəsi araşdırılır, işin obyekti və elmi qaynaqları müəyyənləşdirilir. Eyni zamanda burada dissertasiya işinin əsas məqsədi, həmin məqsədə yetişmək üçün qarşıya qoyulan vəzifələr müəyyən edilir, araşdırmanın nəzəri-metodoloji əsasları açıqlanır, işin elmi yeniliyi, praktik əhəmiyyəti əsaslandırılır, strukturu barədə yığcam məlumat verilir.

Tədqiqat işinin "**Məhcur Şirvani irsinin öyrənilməsi məsələləri**" adlanan **birinci fəsli** iki yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsildə** XVII əsrin sonu XVIII əsrin əvvəllərində Azərbaycanda yaranmış ictimai-siyasi durum icmal şəklində nəzərdən keçirilir və yaranmış vəziyyətin təbii olaraq ölkənin iqtisadi və mədəni inkişafına təsiri məsələləri qısa şəkildə şərh edilir, XVIII əsr Azərbaycan ədəbi-bədii təfəkkür axınının başlıca xüsusiyyətləri, özünəməxsus spesifik cəhətləri araşdırılır.

Tədqiqatçıların da qeyd etdiyi kimi, "...bu dövrkü Azərbaycan şeiri özünəqədərki şeirdən həyatı daha konkret, doğru əks etdirməsi ilə seçilir".[1] XVIII əsrdən etibarən Azərbaycan ədəbiyyatında klassik şeir üslubu ilə yanaşı xalq şeiri üslubu da inkişaf etməyə başlayır, hətta klassik lirikanın aparıcı janrı olan qəzəllərdə, eləcə də müxəmməs, müstəzad və s. kimi janrlarda da istər dil, istərsə də mövzu baxımından xalq şeirinin, folklor təfəkkürünün təsiri açıq-aydın görünür.

Klassik lirikanın janrları arasındakı tənasüb də tədricən yerini dəyişirdi. Əvvəlki əsrlərdə şairlər daha çox qəzəl, qəsidə janrlarına üstünlük verirdilərsə, artıq XVIII əsrdən müxəmməs, mürəbbe, müstəzad, müəşşər, tərkibbənd, tərcibənd, müsəddəs, müsəbbe kimi şeir şəkillərinə daha çox müraciət edirdilər. "Müxəmməs bəzən qəzəlin və hətta məsnəvinin də yerini tuturdu".[2] Klassik üslubda əruz vəznində yazan sənətkarlar hətta heca vəzninin qoşma, gəraylı, təcnis, bayatı kimi aşıq şeiri formalarında da öz qələmlərini sınayırdılar.

---

[1] XIII-XVIII əsrlər Azərbaycan poeziyasından seçmələr. Tərtib, ön söz və çevirmələrin müəllifi X.Yusifli. Bakı, Oka Ofset Nəşriyyat-Poliqrafiya Şirkəti, 2007. Səh.5.

[2] Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. III c. Bakı, "Elm", 2009. Səh. 467.

Bu yarımfəsildə daha sonra XVIII əsr lirikasının müraciət etdiyi mövzu rəngarəngliyi də ayrı-ayrı əsərlərdən[1], elmi mənbələrdən[2] gətirilən sitat, nümunə və misallar əsasında təhlil süzgəcindən keçirilir, bütövlükdə dövrün ədəbi mənzərəsi dəyərləndirilir.

**İkinci yarımfəsildə** Əlyazmalar İnstitutunda saxlanılan cünglərdəki əlyazma vərəqlərdə[3] olan qeydlər və şairin əsərlərindəki bəzi işarələr, eləcə də bir sıra tədqiqatlarda verilən məlumat və bilgilər ümumiləşdirilərək belə bir nəticə əldə edilmişdir ki, Molla Məhcur Mürsəli Şirvani XVII əsrin sonu XVIII əsrin əvvəllərində Şirvanın Mürsəl kəndində yaşayıb-yaratmışdır. Əlyazmalarda qeyd olunan "Molla Məhcurrast" (Molla Məhcurundur) imzası göstərir ki, şairə "Molla" ləqəbi verilmişdir. Təbii ki, bu, onun təkcə molla-ruhani olması ilə deyil, həm də elm-irfan sahibi olması ilə bağlı idi. Məhcur ilk təhsilini, çox güman ki, Mürsəl kəndinin molla məktəbində almışdır. Şairin şeirlərində ərəb və fars sözlərinin tez-tez işlənməsi və xüsusilə də fars dilində yazılmış rübailəri onun fars dilini də bu dildə gözəl bədii təranələr yarada biləcək qədər mükəmməl bildiyini göstərir.

Bir müsəlman ruhanisi kimi Məhcurun dini etiqadı çox güclü olmuşdur. Şeirlərindəki Quran ayələrinə işarələr, ilahiyə müraciətlər bunu bir daha təsdiqləyir. Onun hər bir şeirində, hər bir sətrində Xaliqin qüdrətinə büyük inamın ifadəsini görürük.

Ümumiyyətlə, əsərlərindən çıxış edərək deyə bilərik ki, şair orta ruhani təhsili almaqla kifayətlənməmiş, Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələri ilə, qədim nağıl və dastanlarımızla tanış olmuş, klassiklərimizin yaradıcılığını, xüsusilə də böyük Nizami və Füzuli irsini dərindən öyrənmişdir.

---

[1] Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. III c. Tərtib və ön sızün müəllifi C.Qəhrəmanov. Bakı, "Şərq-Qərb", 2005. 456 səh. Məhəmməd. Şəhriyar. Tərtib edən, ön söz və lüğətin müəllifi Əlyar Səfərli. Bakı, "Şərq-Qərb", 2006. 216 səh. Möhsün Nəsiri. Lisanüt-teyr ("Quşların dili"). Bakı, "Tural-Ə" NPM, 2001. 292 səh. Hikmət xəzinəsi. (Qədim Azərbaycan ədəbiyyatı müntəxəbatı). Tərtib edənlər Əlyar Səfərli, Xəlil Yusifli. Bakı, "Maarif" nəşriyyatı, 1992. 556 səh. Qurbani. 55 şeir. Tərtib və ön sözün müəllifi A.Dadaşzadə. Bakı, Gənclik, 1972. 64 səh.

[2] Səfərli Əlyar. XVII-XVIII əsrlər Azərbaycan epik şeiri. Bakı, Yazıçı, 1982. 206 səh. Dadaşzadə Araz. XVIII əsr Azərbaycan lirikası. Bakı, "Elm" nəşriyyatı, 1980. 228 səh.

[3] AMEA M.Füzuli ad. Əlyazmalar İnstitutu. Cüng Б-2228/3147; Б-1812/3737; Б-1987/3145.

Bu yarımfəsildə ilk növbədə əlyazma cünglərdə saxlanılan, ayrı-ayrı toplu və kitablarda dərc olunan şeirlər, sonra isə şair haqqında indiyədək az-çox məlumat verən hər bir mənbə nəzərdən keçirilir və onlara münasibət bildirilir. Bu zaman çalışmışıq ki, şair haqqında bəhs edilən kiçik bir qeydə belə biganə qalmayaq. Hətta ayrı-ayrı cünglərdə Məhcurun şeirləri yazılan vərəqlərin kənarlarındakı katib qeydlərini belə nəzərdən qaçırmamışıq. Əksinə, məhz XVIII-XIX əsrlərə aid olan bu cünglərdəki qeydlərə daha çox önəm verilmişdir.

Məlum olmuşdur ki, şairin əsərlərinin nəşr olunduğu ilk mənbələrdən biri H.Ə.Qaibovun (1830-1917) "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir"[1] təzkirə-toplusudur. Azərbaycan ədəbiyyatşünaslığında şairdən bəhs edən tədqiqatçılar sırasında isə F.Köçərli, H.Araslı, Ə.Səfərli, A.Dadaşzadə və N.Cəfərovu göstərmək olar. Bu və ya digər münasibətlə şairin əsərlərindən bəhs edən hər bir tədqiqat diqqətlə öyrənilmiş və iş prosesində yeri gəldikcə onlara istinad edilmişdir. Bəzən razılaşmadığımız məqamlara isə tənqidi yanaşmağa çalışmışıq.

Məhcur Şirvani irsinin nəşri və tədqiqi tarixinin öyrənilməsi bir daha göstərdi ki, şairin nəşr olunan əsərləri və haqqında yazılanlar çox vaxt bir-birini təkrarlayır. Odur ki, şairin irsinin küll halında nəşrinə, həyat və yaradıcılığının dərin elmi təhlilinə çox böyük ehtiyac var. Bu problemin həlli ədəbiyyat tariximizin müvafiq mərhələsinin ədəbi-bədii problemlərinə də aydınlıq gətirmiş olar.

Dissertasiya işinin **"Məhcur Şirvaninin poetik irsi"** adlanan **II fəsli** üç yarımfəsildən ibarətdir.

**"Məhcur Şirvani lirikasının mövzusu və ideya-fikir axtarışları"** adlanan birinci yarımfəsildə Məhcur lirikasındakı eşq anlamının mahiyyəti açıqlanır. Yəni "eşq" şair üçün nədir, hansı anlamda işlənmişdir? Dünyanı dərketmə, mənəvi kamilləşmə və Tanrıya qovuşma vasitəsi, yoxsa sevgiliyə, dosta və qəlbinə həmdəm olan kimsəyə qarşı şairin - aşiqin qəlbindən qopan real məhəbbət hisləri? Məhcurun – aşiqin sevdiyi gözəl real obyektdir, yoxsa ilahi gözəlliyin, irfani varlığın timsalıdır? Bu məsələləri çözmək üçün şairin lirikasındakı "eşq" məfhumu iki istiqamətdə incələnmişdir: Məhcur şeirində ilahi-irfani sevgiliyə məhəbbət və dünyəvi eşq. Məlumdur ki, Azərbaycan ədəbiyyatı təkcə bədii düşüncənin deyil,

---

[1] Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir. 4 cilddə. III c. Tərtib edən Hüseyn Əfəndi Qaibov. Bakı, "Mütərcim", 2002. 252 səh.

həm də fəlsəfi fikrin əsas təzahür və ifadə vasitəsi olmuşdur. Bu ədəbiyyatın ideya qaynaqları içərisində türk mifik təfəkkürü, qədim türk inancları, adət-ənənələri ilə yanaşı, Yaxın və Orta Sərq ədəbiyyatında və onun ən özəl, aparıcı qolu olan Azərbaycan ədəbiyyatında dərin köklərə malik təsəvvüfün də çox böyük yeri vardır. A.Dadaşzadə yazır ki, sözü gedən yüzillikdə yaranmış ədəbiyyatda "ümumən orta əsr poeziyası üçün səciyyəvi olan bəzi motivlər axtarmaq əbəsdir, elmi bilik və təsəvvürlərə aid fikirlər, xüsusi fəlsəfi-ideoloji, dini-təbliği ruh XVIII əsr şeiri üçün yabançı idi, sufi simvollar və obrazlar əsasən zahiri, ənənəvi bədii vasitə kimi işlənirdi"[1]. Əlbəttə, hörmətli alimin dediklərində bir həqiqət var. Nəsimi, Füzuli və digər şairlərin yaradıcılıqlarındakı dərin fəlsəfi baxışlar, birbaşa ilahiyə ünvanlanmış eşq XVIII əsr poeziyasında yoxdur və bu da çox təbiidir. Çünki, qeyd etdiyimiz kimi, bu yüzillikdə orta əsrlərdən tamamilə fərqlənən, bir növ yeniləşməyə doğru meyl edən (həm forma, həm də məzmun baxımından), nikbin, həyata daha çox bağlı olan və real gerçəklikdən qidalanan bir ədəbiyyat yaranmaqda idi. Ancaq Azərbaycan ədəbiyyatı həmişə mənəvi-əxlaqi kamilləşmə məktəbi olmuşdur. Digər tərəfdən, hər bir əsərdə şairin dünyaya baxışı, ta keçmişindən tutmuş bugünkü qlobal hadisələrə qədər hər bir dəyişikliyə, yeniliyə fəlsəfi münasibəti öz əksini tapır. Çünki, yaranışından bütün insanlığı düşündürən və daima ədəbi-bədii və ictimai fikrin mərkəzində duran, "yüzlərlə sənət əsərinin leytmotivinə çevrilən" kamil insan və bu zirvəyə doğru aparan "özünü idrak" mövzusunun çözülməsində də təsəvvüf fəlsəfəsi həmişə sənətkarların istinad nöqtəsi olmuşdur. Heç şübhə yoxdur ki, özündən əvvəlki irsdən bəhrələnən, qədim və zəngin ədəbi ənənələr üzərində yetişən, yetkinləşən bir ədəbiyyat nümayəndəsi kimi Məhcurun da yaradıcılığında mənsub olduğu və daha doğru desək, varisi olduğu bu xəzinədən özünəməxsus inci payı var. Əlbəttə, biz Məhcuru heç də təsəvvüf şairi kimi təqdim etmək fikrində deyilik. Ancaq bu da danılmazdır ki, şairin əsərlərində bütövlükdə olmasa da, ayrı-ayrı məqamlarda təsəvvüfün izləri var və onun *yar, hal, saqi, meyi-nab, canan, qəlb, könül, qəriblik, təvəkkül və s.* kimi sufi rəmz və simvollarından yerli-yerində istifadə etdiyi açıq-aydın görünür.

Təsəvvüf alimləri Haqqa qovuşma yolu, onun nəzəri və əməli yönləri barədə müxtəlif fikirlər söyləsələr də bu düşüncələr bütün hallarda bir nöqtədə birləşir: Xəlq edilmiş hər bir şey İlahinin mövcudluğundan başqa

---

[1] Dadaşzadə Araz. XVIII əsr Azərbaycan lirikası. Bakı, "Elm" nəşriyyatı, 1980. Səh. 51.

bir şey deyildir və İlahidən yaranmış hər bir şey nəhayətdə Ona da qovuşmalıdır. Dissertasiyada bütün bu deyilənlər şairin əsərlərindən verilən nümunələr və mövzu ilə bağlı bir sıra tədqiqatlardan[1] gətirilən misallar əsasında aydınlaşdırılır.

Məhcur Füzuli ədəbi məktəbinin davamçısı olsa da öz dövrünün oğlu idi. XVIII əsrdə yaranmaqda olan yeni ədəbi-estetik zövq Məhcurun da yaradıcılığından yan keçməmişdir. Bu mənada Məhcurun "Azərbaycan poeziyasına yeni nəfəs, yeni üslüb gətirmiş" Vaqif ədəbi məktəbi ilə səsləşən şeirləri bu əsrdə yaranmış məhəbbət lirikasının ən gözəl nümunələrindən sayılmağa layiqdir.

Digər müasirlərində olduğu kimi Məhcurun da şeirlərində, real məhəbbət lövhələrinə, "əl çatıb, ün yetən sevgiliyə" tez-tez rast gəlirik. Araz Dadaşzadə yazır ki, "Vaqif şeirində biz aşiqin sevgili ilə görüşünün dəfələrlə şahidi oluruq ki, bu da orta əsr lirikası üçün bir növ "qadağan edilmiş" mövzu idi"[2].

Məhcurun da "Gəlmiş yengidən" rədifli şeirində eyni motivlərə rast gəlirik:

Şəfqət ilə xəstə dillər könlümü şad etməgə,
Mübtəlayi-dərdü qeydi-ğəmdən azad etməgə,
Xahi-ehsanın açub aləmdə bir ad etməgə,
Cabeca dil şəhrinin vicdanın abad etməgə,
Şükr kim, bir məhvəşi-memar gəlmiş yengidən.[3]

Şair "Gəlmiş yengidən" rədifini seçməklə sanki bu görüşün təsadüfi olmadığını vurğulamaq istəmişdir. Məhcurun konkret sevgiliyə ünvanlanmış şeirlərində reallıq daha çox nəzərə çarpır.

Bəzən şair gözələ olan heyranlığını xüsusi coşqunluqla, vəcdlə bildirməkdən də çəkinmir. Dəlicəsinə vurulmuş aşiq sanki aləmə səs salaraq sevgilisinin gözəlliyi haqqında nəğmə oxuyur.

---

[1] Ismayıl Ankaravî Dede. Merâtib-i sülûk (Sülûkun mertebeleri) ve Yüz Mertebe. http://umut rehberi. tassavvufi. Com /yazmalar/ yuz mertebe. Pdf. Mustafa Fethullah Gülen. Kalbin zümrüt tepeleri. İzmir, Nil yayınları, 1997. 262 səh. Геюшов Н. Мусульманский мистицизм и средневековая литература. // Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri-metodoloji məsələləri. Bakı, 2010. Quluzadə Mirzağa. Füzulunin lirikası. Bakı, Azərbaycan SSR EA Nəşriyyatı, 1965. 478 səh. Fətəliyeva Nəzakət. Sufizm – mənəvi yüksəliş və təmizlik fəlsəfəsidir. // Azərbaycan filologiyası məsələləri. (Məruzələrin tezisləri). Bakı, Azərnəşr, 1995. Səh. 35-36. Və s.

[2] Dadaşzadə Araz. XVIII əsr Azərbaycan lirikası. Bakı, "Elm" nəşriyyatı, 1980. Səh. 71.

[3] AMEA M.Füzuli ad. Əlyazmalar İnstitutu. Cüng Б-1987/3145. Vər.36$^{б}$.

M.Şirvaninin yaradıcılığının təhlili göstərir ki, şairin şeirlərində ilahi, rəmzi-simvolik məhəbbət motivləri üstünlük təşkil etsə də, dünyəvi eşqin tərənnümü də müəyyən yer almaqdadır. Şübhəsiz ki, birinci hal ənənədən gələn bir örnəkdirsə, real, həyati məhəbbət lövhələri poeziyada yaranmaqda olan yeni, xəlqiləşən, bir növ sadələşən ədəbiyyatın təsirindən təbii olaraq doğurdu.

Birinci yarımfəsildə həmçinin Məhcurun gözəlləmə səpkili şeirlərinin təhlili də verilir.

Qeyd edildiyi kimi, XVIII əsr ədəbiyyatının ən böyük nailiyyəti onun xalq şeirinə yaxınlaşması və ondan qidalanmasıdır. Bu yaxınlaşma yalnız dil-üslub xüsusiyyətləri ilə ölçülmür, eyni zamanda, mövzu problematikasında da özünü açıq-aydın hiss etdirirdi. Belə şeirlərin ən gözəl nümunəsi gözəlin - sevgilinin zahiri hüsnünün və eyni zamanda daxili-mənəvi keyfiyyətlərinin təsvir edildiyi lirik parçalardır.

Məhcurun lirik yaradıcılığında başdan-ayağa gözəlin tərifinə həsr oluinmuş şeirlər olmasa da ayrı-ayrı əsərlərində sevgilinin gözəlliyi çox incə, zərif bənzətmə və təşbehlərlə təsvir edilmişdir, onun aşiqə zövq verən gül yanagı, püstə dəhanı, mirvari dişləri və s. sevə-sevə tərif edilmişdir. Real sevgiliyə həsr olunmuş şeirlərində də Məhcur ənənəvi şeirə, klassik lirikanın dil-üslub keyfiyyətlərinə sadiq qalır. Bu, sevgilinin portretini yaradarkən işlətdiyi söz və ifadələrdə də özünü göstərir: *qaşların qövsi-qüzeh, qəmzələrin tiri-şəhab, xəmi-əbru, məhi-taban, lalə rüx, məhrüxsar, şəkərgöftar, sərvi-xoşrəftar, qaməti-mövzun, xəti növrəstə, hüsnü sadə* və s. Bu ifadələr zahiri gözəllikdən daha çox daxili, mənəvi keyfiyyət məzmunludur. Şair nə qədər həyati, nə qədər real lövhələrlə təsvirə çalışsa da, klassik üslubun çərçivələrini, əxlaqi-estetik normalarını, dil-ifadə sərhədlərini qırıb ata bilmir, bəlkə də heç buna çalışmır. Məhcurun şeirlərinin araşdırılması göstərir ki, şair təsvir etdiyi gözələ və gözəlliyə böyük hörmət, təmiz, pak məhəbbət hisləri ilə yanaşmış, onu "eybdən azadə" təsvir etmişdir. Onun sevgili obrazı vəfasız olanda da, aşiqinə zülm edəndə də sözün bütün mənalarında gözəldir.

Daha sonra Məhcurun lirikasındakı əsas mövzu çalarlarından biri olan vüsal həsrəti, hicran dərdi, sevgilinin vəfasızlığından, etinasızlığından, laqeydliyindən, əğyarla həmdəm olmasından şikayət motivləri incələnir.

Bu motivlər XVIII əsr poeziyasında da özünəməxsus şəkildə əksini tapır. "Vəfalı yar-yoldaş, həmdərd axtarışı, sözbilən, qədirbilən adamla təmas arzusu orta əsrlər, xüsusilə XVIII əsr lirikasında mühüm ictimai mövzu kimi irəli sürülür. Bu mövzu ümumiyyətlə dövran, həyat,

insan, həqiqət, ədalət, vəfa, fələk kimi anlayışlara münasibətin bir çaları kimi meydana çıxır”.[1]

Bütün şikayət və ahü zarına rəğmən böyük sələfi Füzuli kimi Məhcur da “Ğəmin zövqün bilən hicran günü firqətdən incinməz” – deyə, eşq yolunda, sevgili yolunda çəkilən əziyyətin, hicran dərdinin, qəm-kədərin və ayrılıq möhnətinin də bir zövq olduğunu söyləyir. Məhcurun da qələmində aşiq çox fədakar və dözümlü təsvir edilmişdir və qeyd etdiyimiz kimi, heç təsadüfi deyil ki, o tez-tez özünü Məcnunla müqayisə edir, öz eşqini Məcnunun eşqinə bərabər tutur. Ümumiyyətlə, Şərq ədəbiyyatının, o cümlədən Azərbaycan ədəbiyyatının lirik qəhrəmanı – aşiq ilk növbədə eşq yolunda, sevgili yolunda öz fədakarlığı ilə diqqəti cəlb edir.

Şikayət və inilti dolu sətirlər arasında bəzən Məhcurun zəif də olsa, etiraz səsi duyulur. Qəm yükündən rəngi saralmış, qaməti əyilmiş şairin yeganə həmdəmi möhnət guşəsində qanlı yaş tökən gözləridir. Onu bu dərdə salan yarının əğyar ilə həmdəm olmasıdır. Bu xəyanət aşiqi cəhənnəm odu kimi yandırır. Məhcur yarının etinasızlıq və biganəliyinə nə qədər yumşaq və nəvazişlə yanaşıb ona yalvarış dolu müraciətlər edirsə, sevgilinin vəfasızlıq və xəyanətinə də bir o qədər kəskin münasibət göstərir.

Beləliklə, Məhcur Şirvani lirikasının ideya-mövzu istiqamətlərinin araşdırılması göstərir ki, şair klassik lirikanın mövzu rəngarəngliyindən bəhrələnərək qəhrəman-aşiqin dililə insanı düşündürən, narahat edən fəlsəfi, irfani mətləblər, dünyəvi eşq və məhəbbət, cəmiyyətdəki haqsızlıq və ədalətsizliklər və s. barədə fikir və mülahizələrini poetik sözün sonsuz imkanlarından istifadə edərək sənətkarlıqla qələmə almışdır.

**“Məhcur Şirvani lirikasının poetikası”** adlanan ikinci yarımfəsildə şairin yaradıcılığında işlənən klassik poetik fiqurlardan, söz və obrazlardan, bir sözlə, Məhcur lirikasının söz və məna gözəllilklərindən bəhs edilir.

Epitet (tosif), təşbih və onun növləri (təşbihi-təfzili, təşbihi-cəm), təqid, istiarə, mübaliğə, xitab və onun növləri (təcride-qeyri-məhz), istifham (bədii sual), müqabilə (bədii təzad) və onun növləri, təkrir və onun növləri (anafora), alliterasiya (touzi), irsəlül-məsəl və ya təmsil, inversiya, iham və touriyyə (eyham) kimi bədii fiqurlar şairin yaradıcılığından

[1] Dadaşzadə Araz. XVIII əsr Azərbaycan lirikası. Bakı, “Elm” nəşriyyatı, 1980. Səh.100.

gətirilən nümunələr əsasında və klassik poetika alimlərinin[1] gəldikləri nəticələrə dayaqlanaraq incələnmiş və təhlil olunmuşdur.

Məhcur Şirvani lirikasının poetik xüsusiyyətlərinin araşdırılması, təhlili və müqayisəli şəkildə öyrənilməsi bir daha göstərir ki, şair dövrünün poetika elminin incəliklərinə bələd olmuş, istedadı və qabiliyyəti çərçivəsində bu qiymətli xəzinənin gövhərlərindən bəhrələnmişdir.

Məhcurun dilindəki obrazlılıq və bədiilik, təşbih və metaforik zənginlik, sözün rəngarəng məna çalarlarından istifadə bacarığı şairin obrazlı təfəkkürünün qüdrətindən, şair xəyalının fantaziyasından xəbər verir. Onun yaradıcılığının əlimizdə olan çox az bir hissəsi üzərində araşdırılan bu bədii fiqurlar şairin lirikasına özünəməxsus çalar və rəng vermişdir. Şair sözün məzmun əlvanlığını və məna dəyərini incələyən poetik kateqoriyalarla yanaşı onun zahiri, tələffüz gözəlliyinə xidmət edən ifadə vasitələrini də sənətkarlıqla işlətmişdir.

Məhcur Şirvani lirikasının bədii sənətkarlığının öyrənilməsi təkcə şairin fərdi yaradıcılığı üçün deyil, ümumən XVIII əsr Azərbaycan ədəbiyyatının bədiyyat problemlərinin öyrənilməsi baxımından da əhəmiyyətlidir. Mahirə Quliyevanın da qeyd etdiyi kimi, “klassik ədəbiyyatın bədii-estetik dəyərinin daha bitkin mənzərəsini yaratmaq üçün ayrı-ayrı sənətkarların yaradıcılığını bədiyyat baxımından təhlil etmək lazımdır”. Çünki, hər hansı şairin poeziyasında poetik rəngarəngliyin, təfəkkürün ən yüksək zirvəsi olan obrazlar, məcazlar aləminin araşdırılması onun sənətkarlığından, yaradıcılığının məziyyətlərindən xəbər verməklə yanaşı, ümumilikdə dövrün ədəbi prosesinin səciyyəsi barədə aydın təsəvvür yaradır.

Məhcurun əsərlərinin janr xüsusiyyətlərinin öyrənilməsi göstərir ki, şair dövrün ədəbi prosesində işlənən lirik janrların əksəriyyətində qələmini sınamışdır.

---

[1] Araslı Nüşabə. Nizaminin poetikası (ədəbi qaynaqlar və bədii təsvir vasitələri). Bakı, “Elm”, 2004. 454 səh. Budaqova Zərifə. Məcazlar sistemi. // Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər). Bakı, “Elm”, 1970. Səh. 113-139. Quliyeva Mahirə. Klassik şərq poetikası. Bakı, Yazıçı, 1991. 128 səh. Paşayev Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı, ADU Nəşriyyatı, 1958. 276 səh. İsmayıl Habib. Edebiyyat bilgileri. İstanbul. 1942. Ватват Рашид ад-Дин. Сады волшебства в тонкостях поэзии (Хада ик ас-сихр фи дака и кашшир). Москва, «Наука». 1985. 324 стр. Вахид Табризи. Джам-и мухтасар. (Трактат о поэтике). Критический текст, перевод и примечания А.Е.Бертельса. Москва, Издательство Восточной Литературы, 1959. 158+120 стр. Və s.

O, əruz vəzninin qəzəl, müxəmməs, təxmis, müəşşər, rübai, bəhri-təvil, heca vəzninin qoşma kimi janrlarına müraciət etmişdir. Lakin şairin müxəmməsə daha çox üstünlük verdiyi açıq-aydın hiss olunur ki, bu da dövrün ədəbi prosesinin ab-havasına tam uyğun idi. Şairin qəzəl və müxəmməslərinin janr xüsusiyyətləri üzərində ayrıca dayanmağa lüzum görmədik. Bu əsərlər istər məna-məzmun, istərsə də janrın formal əlamətləri baxımından ədəbiyyatımızda yaranmış klassik qəzəllərlə eyni səviyyədə dayanmağa tam layiq sənət əsərləridir.

Ancaq Məhcurun təxmisləri, xüsusilə də XVI əsr türk şairi Baqi əfəndiyə yazdığı təxmis geniş təhlil edilmiş, "Gəl vəqtdir" şeirinin janr xüsusiyyətləri müasir və klassik şərq nəzəriyyəçiləri və şairlərinin əsərlərindən[1] gətirilən nümunələr əsasında araşdırılmış və belə bir nəticəyə gəlinmişdir ki, adı çəkilən şeir nə tərcibənd, nə də müsəmmət janrının quruluş xüsusiyyətlərinə, tələb və qaydalarına uyğun gəlir. Çünki Məhcur əsərini müəşşər şeir növündə yazmış və klassiklərimizin çox nadir hallarda müraciət etdikləri bu janrın gözəl nümunəsini yaratmışdır. Şeir ilk əlyazmalarında da müəşşər adlandırılmışdır. Б-1335/2958 şifrəli cüngdə müəşşərin verildiyi vərəq 30-da "Müəşşəre-min kəlame-Məhcur" qeydi də dediklərimizə əyani sübutdur. XVIII əsr Azərbaycan ədəbiyyatının bədii metodu problemi, romantik və realist inikasın qarşılıqlı əlaqəsi, daha doğrusu, toqquşub çulğaşması müasir ədəbiyyatşünaslıq üçün də aktual problemlərdəndir.

XVIII əsr ədəbi prosesində iki üslub – Şərq ədəbiyatının və onun ayrılmaz hissəsi olan Azərbaycan ədəbiyyatının tarixən qədim ənənəyə malik olan romantik üslubu və yeni-yeni pöhrələr açan realist inikas ünsürləri açıq-aydın hiss olunur və belə demək mümkünsə, yanaşı yaşayır. Bir tərəfdən Füzuli ədəbi məktəbinin davamçıları yetişir və fəaliyyət göstərir, Füzuli mövzuları, rəmzlər və simvollar vasitəsilə inikas davam edir, digər tərəfdən isə orta əsrlər ədəbiyyatından fərqli olaraq dövrün

---

[1] Kərimli Teymur. Müxəmməs. // Azərbaycan ədəbiyyatının tarixi poetikası. II kitab. Poetik fikrin təkamülü. Bakı, Elm, 2006. Səh. 349-361. Nəbiyev Bəkir. Təxmis də bir aləmdir. // Məhəmməd Füzuli – 500. Məqalələr toplusu. Bakı, BDU Nəşriyyatı, 2000. Səh. 65-75. Seyidov Fazil. Füzuli qəzəllərinə yazılan təxmis və nəzirələr. // Məhəmməd Füzuli: (elmi-tədqiqi məqalələr məcmuəsi). Bakı, Azərnəşr, 1958. Səh.336-344. İsmayıl Habib. Edebiyyat bilgileri. İstanbul. 1942. Hüseynoğlu Kamil. XVII-XVIII əsrlərdə Azərbaycan şeir sənətinin inkişaf xüsusiyyətlərinə dair. // Azərbaycan ədəbiyyatının tarixi poetikası. II kitab. Poetik fikrin təkamülü. Bakı, Elm, 2006. Səh. 61-70. Və s.

ictimai-siyasi hadisələri və şəxsiyyətləri tam reallığı ilə bədii təzahürünü tapır, realist təsvir istər məhəbbət mövzularında, istərsə də siyasi-ictimai mövzularda özünə yol açmağa başlayır. Lakin, təbii ki, yeni yaranmaqda olan, ilk addımlarını atan realist inikas XVIII əsr ədəbiyyatının aparıcı metoduna çevrilə bilməzdi. Çünki onunla qoşa addımlayan romantizm daha dərin köklərə, ənənələrə və güclü əsaslara malik idi. Elə az-çoz realizmə meyl edən sənətkarların da yaradıcılığının əksər hissəsi pomantik üslubda idi.

Məhcurun əsas qəhrəmanı olan aşiq həyatda olduğu kimi deyil, sənətkarın görmək istədiyi insandır – fədakardır, sədaqətlidir, yolundan dönməzdir, bütün nöqsanlardan xalidir, sevgi yolunda hər cür əzab-əziyyətə qarşı mətindir və s. Şairin böyük mənəvi dünyası olan qəhrəmanı öz böyük idealı ilə "dəhri-bibəqa" – vəfasız dünya üzərində qələbə çalır. Böyük sənətkarlarda olduğu kimi, Məhcurun da romantik xəyalları, fantaziyaları yaşadığı dövrün hakim münasibətləri və ölçüləri çərçivəsinə sığmırdı. Əslində romantikanı doğuran ən mühüm səbəb də məhz elə budur. Bütün romantiklər kimi Məhcurun da qəhrəmanı yüksək və ülvi sifətlərə malik, mübaliğə və təşbihlərlə vəsf olunmuş ümumiləşmiş aşiq obrazıdır. Bu aşiq əslində müəllif fikirlərinin tərcümanıdır. Onun məhəbbətini yalnız qadına, gözələ olan məhəbbətlə məhdudlaşırmaq olmaz. Onu daha böyük, daha qlobal problemlər düşündürür: cəmiyyətdə insanların bir-birinə münasibəti və bu münasibətdəki naqisliklər (bütün ədalətsizliklər və haqsızlıqların kökündə məhz elə bu dayanır) onu narahat edir, o, çıxış yolu arayır, cəmiyyətin və bütövlükdə kainatın qurtuluş yolunu məhəbbətdə tapan aşiq bu yolda özünü fəda edir. Lakin Məhcurun şeirlərində romantik əhvali-ruhiyyə nə qədər güclü olsa da, realizm meyilləri də özünü hiss etdirir. Bu, daha çox məşuqənin zahiri gözəlliyinin təsvirində, bəzən hətta onunla real görüşdən xəbər verən şeirlərində ("Gəlmiş yengidən", "Neyçün gəlməyir" və s.) onun hərəkət və davranışlarının real təsvirində, gözəlin şairlə eyni məkan və zamanda yaşadığını bildirən məqamlarda, ümumilikdə şairin lirikasındakı nikbin, dünyəvi əhvali-ruhiyyənin üstünlüyündə, şeir dili və üslubunun xalq poeziyasına yaxınlaşmasında və s. özünü göstərir.

**III yarımfəsil "Qisseyi-Şirzad" poemasının mövzusu və ideya-bədii xüsusiyyətləri"** adlanır.

Burada Azərbaycan xalqının qədim və zəngin tarixi köklərə malik və ən başlıca ideyası gözəllik və qəhrəmanlığın tərənnümü olan epik şeir ənənəsi qısaca olaraq nəzərdən keçirilir. XVIII əsr Azərbaycan epik şeirinin səciyyəvi nümunəsi olan "Qisseyi-Şirzad"ı doğuran tarixi-siyasi, ədəbi-bədii şərait qiymətləndirilir. Əsərin özəl xüsusiyyətləri qeyd edilir və

poema Azərbaycan epik şeirinin XVIII əsr dönəmində yaranmış ən xarakterik nümunəsi kimi dəyərləndirilir.

Tədqiqatçılar Məhcurun bu mövzuya müraciət etməsini əsərdə təsvir edilən əhvalatların şairin yaşadığı dövrün tarixi hadisələrinə uyğunluğu ilə əsaslandırırlar və "Qisseyi-Şirzad"ı Nadir şaha qarşı yazılmış əsər hesab edirlər. Burada yalnız qanuni hakimiyyətin bərpası, ədalətin bərqərar olması amalını görmək poemanın ideyasını, belə demək mümkünsə, kiçiltmiş olardı. Zənnimizcə, əsərdə daha böyük amal, ideal ön plandadır.

Bütün dövrlərdə ədəbiyyatın (istər şifahi, istərsə də yazılı) əzəli və əbədi mövzusu hər bir xalqın dilində fərqli səslənsə də mahiyyətcə eyni olan Xeyirlə Şərin mübarizəsi olmuşdur. Bu ideya Azərbaycan ədəbiyyatının ən qədim söz incilərində də həmişə əsas qayə, məqsəd kimi izlənilmişdir.

Əsərdə məhz bu ideyanın əsas tutulması elə ilk beytlərdən bəlli olur. Kamil vəzirlə Aqil vəzirin fərqli və əks daxili aləmlərini əks etdirən beytlər sanki əsərdə baş verəcək hadisələr haqqında proloq rolunu oynayır və zənnimizcə, bir qədər də rəmzi, simvolik məna kəsb edir.

Var idi iki vəziriyi bil,
Biri Aqil, biri Kamil.
Aqil vəziri-əhli-təqva,
Kamil vəzir şəriri-ə'ta.

Beləliklə, Məhcur Şirvaninin "Qisseyi-Şirzad" poemasının əsas ideyası məhz Xeyir və Şərin mübarizəsidir. Əsərdəki bütün hadisə və əhvalatlar da bu ideyanın çözülməsinə, Xeyirin Şər üzərində qələbəsinin təntənəsinə xidmət edir.

"Qisseyi-Şirzad" əsərinin ideyasından doğaraq baş verən əhvalatlarda ilk növbədə xalq nağıllarımızın təsiri açıq-aydın hiss olunur. Epik şeirin təşəkkülündə böyük rolu olan xalq yaradıcılığının digər bir janrının – müəyyən tarixi dövrlərdə xalqın ədəbi-bədii, ictimai-fəlsəfi düşüncəsinin poetik məcmuusu olan dastanların da əsərə güclü təsiri olmuşdur.

Bu fəsildə poemanın süjet xəttinin ayrı-ayrı detalları və qəhrəmanın ətrafında baş verən hadisələr folklor nümunələrimiz - "Şahzadə Mütalib" və "Tapdıq" nağıllarının, "Kitabi-Dədə Qorqud" dastanının uyğun məqamları və obrazları ilə qarşılıqlı-müqayisəli şəkildə tədqiq edilir.

Bu fəsildə həmçinin poemanın Nizaminin "Yeddi gözəl", Füzulinin "Leyli və Məcnun", Fədainin "Bəxtiyarnamə", Məsihinin "Vərqa və Gülşa" əsərləri ilə səsləşən məqamlarını əsərlərdən gətirdiyimiz parçalar əsasında

izləyirik. Bəhram şah, Məcnun, Azadbəxt, Vərqa kimi epik şeirin məşhur qəhrəmanları ilə Şirzadın müqayisəli təhlili obrazın əsas keyfiyyətlərinin daha aydın çatdırılmasına şərait yaradır. Ancaq qeyd etmək lazımdır ki, özünəməxsus cismani hünəri və daxili aləmi ilə yaddaqalan Şirzad obrazı klassik aşiq obrazları – Məcnun, Fərhad, Vərqa səviyyəsində təqdim olunmur. Belə ki, onun xarakterinin dərin psixoloji məqamları, mənəvi-ruhi duyğuları tam dərinliyinə qədər açılmır. Bunun səbəbi isə ondadır ki, Şirzad eşqi yolunda divdən başqa heç bir maneəyə rast gəlmir. Nə qızın ata-anası, nə başqa elçi (əğyar), nə də digər maneə... Əgər belə demək mümkünsə, onun məhəbbət yolu adı çəkilən aşiqlərdən çox hamar olduğu üçün və qəhrəman istər döyüş meydanında, istərsə də aşiqanə-lirik məqamlarda daha çətin mənəvi-ruhi sədlərlə qarşılaşmadığı üçün xarakterindəki yüksək və qüvvətli cəhətlər tam açılmır və bu qəhrəmanlar qədər əlçatmaz bir şəxsiyyət, bütöv və kamil bir xarakter səviyyəsinə yüksələ bilmir.

Əsərin bu istiqamətdə öyrənilməsi bir daha təsdiqləyir ki, müəllif klassik Azərbaycan ədəbiyyatı xəzinəsini zənginləşdirən ədəbi nümunələrə çox yaxından bələd olmuş və onlara sözün əsl mənasında yaradıcı yanaşaraq öz dəst-xəttinə məxsus orijinal bir əsər – qəhrəmanlıq və məhəbbət dastanı ərsəyə gətirmişdir.

M.Şirvaninin "Qisseyi-Şirzad" əsərində həm klassik irsdən gələn məcaz və təşbihlər, həm də zamanın, dövrün diktə etdiyi bədii vahidləri görmək olur. "Qisseyi-Şirzad"ın sənətkarlığından danışarkən qeyd etmək lazımdır ki, əsər orta əsrlərin möhtəşəm məsnəviləri zirvəsinə qalxa bilmir. Necə deyərlər, əsərdə "...Firdovsi əzəməti, Nizami dərinliyi yoxdur. O, böyük sələfləri kimi ciddi ictimai, fəlsəfi ümumiləşdirmələr aparmır"[1]. Poemanın dilində özünü göstərən yersiz təkrarlar, vəzn və qafiyə pozuntuları (bu, katiblərin də xətası ola bilər) onu deməyə əsas verir ki, şair burada adi təhkiyəyə daha çox diqqət vermiş, poetik obrazlılıq bir növ ikinci plana keçmişdir.

Əsərdə bəzən ayrı-ayrı misra və beytlər farsca işlədilmişdir. Eyni zamanda "Kitabi-Dədə Qorqud"un dilində tez-tez işlədilən arxaikləşmiş qədim türk sözlərinə də rast gəlinir. Çoxluq, sonsuzluq bildirmək üçün "beş min", "yüz min", "on min" miqdar saylarından istifadə edilmişdir. Poemanın dilindəki təzadlar, ayrıca lirik ricətlər şəklində olmasa da, ara-

---

[1] Səfərli Əlyar, Yusifli Xəlil. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər). Bakı, "Ozan", 2008. Səh.273.

sıra, yeri gəldikcə işlədilən hikmətamiz sözlər əsərin bədii dəyərini daha da artırır.

"Qisseyi-Şirzad" əsəri istər mövzu seçimi, istərsə də dil, üslub xüsusiyyətlərinə görə XVIII əsr epik şeirimizin ən səciyyəvi nümunəsi olaraq dəyərlidir və poemanın ədəbiyyat tariximizdə özünəməxsus yeri vardır.

**Dissertasiyada mühüm nəticələr əldə edilmişdir**.

Molla Məhcur Mürsəli Şirvani XVII əsrin sonu və XVIII əsrin əvvəllərində Şirvanın Mürsəl kəndində yaşayıb yaratmışdır. Ruhani təhsili almış, Azərbaycan klassiklərinin yaradıcılığına, klassik Şərq poetika elminin incəlikərinə, təsəvvüf fəlsəfəsinin sirlərinə bələd olmuşdur. Məhz savadlı, təhsilli olduğu üçün şairə "Molla" ləqəbi verilmişdir. Məhcurun yazıb-yaratdığı dövrdə klassik ədəbi ənənələr hələ güclü idi, yeni ruhlu ədəbiyyat isə ilk addımlarını atırdı. Ona görə də şairin yaradıcılığında hər iki üslubun çulğaşıb qovuşduğunun şahidi oluruq. Bu, onun həm mövzu seçimində, həm də forma axtarışlarında özünü göstərir.

Məhcur Şirvaninin lirik əsərlərinin bədii sənətkarlıq xüsusiyyətlərinin araşdırılması göstərdi ki, şair klassik şərq poetika elminin qanun-qaydalarını, "məani və ləfzi" sənətlərinin sirlərini onlardan istifadə edərək gözəl poetik nümunələr yarada biləcək qədər dərindən mənimsəmişdir.

Məhcurun "Gəl, vəqtdir" şeirinin janr xüsusiyyətlərindən ayrıca, geniş bəhs olunmuş, klassik şərq nəzəriyyəçilərinin və müasir Azərbaycan ədəbiyyatşünaslığının təcrübələrinə əsaslanaraq əsərin klassik lirikanın məhz ən az işlənmiş müəşşər janrında yazıldığı qənaətinə gəlinmişdir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları aşağıdakı kitab, tezis və məqalələrdə öz əksini tapmışdır:**

1. XVIII əsr Azərbaycan epik şeirinin əsas qəhrəman tipləri. // **AMEA GREM. Xəbərlər məcmuəsi.** №4. Gəncə, Elm, 2001. Səh. 102-103.
2. XVIII əsr Azərbaycan tarixi gerçəkliyinin bədii əksi. // **AMEA GREM. Xəbərlər məcmuəsi.** №36. Gəncə, Elm, 2009. Səh. 150-155.
3. XVIII əsr ədəbi-bədii təfəkkür axınının başlıca xüsusiyyətləri. // **Azərbaycan Təhsil Nazirliyi GDU. Elmi əsərlər**. №2. "Elm" nəşriyyatı. 2009. Səh. 123-130.
4. Məhcur Şirvani irsinin nəşri və tədqiqi tarixi. // AMEA Nizami ad. Ədəbiyyat İnstitutu. **"Ədəbiyyat məcmuəsi" (Nizami ad.**

**Ədəbiiayt İnstitutunun əsərləri)**, XXII c., Bakı, “Elm”, 2009. Səh. 66-72.

**5.** Məhcur Şirvaninin “Gəl vəqtidir” şeirinin janr xüsusiyyətləri. **AMEA. Xəbərlər. Humanitar elmlər seriyası.** №1. Bakı, “Elm”, 2010. Səh. 25-32. (X.Yusifli ilə birlikdə).

**6.** Mehcur Şirvani'nin yaradıcılığında sofiligin izleri. // **Turan. Stratejik Araştırmalar Merkezi.** Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergi. Sayı 8 B. Sonbahar Dönemi. Konya. Türkiye Cumhuriyyeti, Hakimiyet Gazetesi Matbaası. 2010. Seh. 76-80.

**7.** Məhcur Şirvani şeirində dünyəvilik. // Bakı Dövlət Universiteti. **Dil və ədəbiyyat**. Beynəlxalq elmi-nəzəri jurnal 1(77). Bakı, 2011. Səh. 94-98.

**8.** Ağlar mənim əhvalimə qəbrimdə bitən gül. // “**Azərbaycan**”. Azərbaycan Yazıçılar Birliyinin aylıq ədəbi-bədii orqanı. №4, 2011. Səh.180-183.

**9.** Məhcur şeirinin Məcnun dərdi. // AMEA Əlyazmalar İnstitutu. **Filologiya məsələləri**. №6, 2011. Səh. 303-309.

**10.** Məhcur Şirvaninin təsəvvüf və irfan dünyası. // AMEA Əlyazmalar İnstitutu. **Filologiya məsələləri**. №9, 2011. Səh.293-307.

**11.** Nizami irsi və Məhcur yaradıcılığı. // AMEA GREM. **“Nizamişünaslıq”**. №1. Gəncə, “Elm”, 2011. Səh. 201-204.

**12.** Məhcur Şirvaninin türk şairi Baqiyə yazdığı bir təxmis haqqında. // Azərbaycanın görkəmli şərqşünas alimi, əməkdar elm xadimi, prof. M.Əlizadənin 100 illik yubileyinə həsr olunmuş **“Şərq filologiyasının aktual problemləri” mövzusunda respublika elmi konfransının materialları.** Azərbaycan Respublikası Təhsil Nazirliyi BDU Şərqşünaslıq fakültəsi. Bakı, Dekabr, 2011. Səh. 383-385.

**13.** Поэтика эпитетов лирики Махджура Ширвани. **«Ученые записки» Таврического Национального Университета им. В.И.Вернадского. Научный журнал. Серия «Филология. Социальные коммуникации»,** Том 24 (63). № 3. Симферополь, 2011. Стр.105-110.

**14.** Məchur şeirinin məna gözəllikləri. BDU “Elmi Xəbərlər” № 4, 2011. səh. 55-65.

**15.** Məhcur Şirvani yeni təfəkkür işığında. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2012. 366 səh. (X.Yusifli ilə birlikdə).

**Т.К.Бадалова**

## Жизнь и творчество Махджура Ширвани

### РЕЗЮМЕ

Диссертационная работа посвящена исследованию жизни и творчества азербайджанского поэта XVIII века Махджура Ширвани.

Работа состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении обоснована актуальность темы диссертации, исследована степень ее изученности, определены источники, объект и предмет, цели и задачи исследования, указаны его теоретические и методологические основы, а также определены научная новизна и практическая ценность работы.

Первая глава диссертации называется «Вопросы изучения наследия Махджура Шивани» и состоит из двух частей. Здесь дан краткий обзор историко–социального положения Азербайджана в конце XVII - начале XVIII века и главных особенностей национального литературно – художественного мышления, а также освещены неизвестные моменты жизни поэта. Помимо этого, затронуты вопросы поисков и издания его произведений, широко комментируется история исследований стихов поэта. Надо отметить, что в этой главе широко обсуждаются поэтические образцы Махджура Ширвани, найденные в виде рукописей.

Вторая глава работы называется «Поэтическое наследие Махджура Ширвани» и состоит из трех частей. В этой главе уточняются тема и содержание лирики М.Ширвани, раскрывается сущность понятия «любовь», котороя составляет основу произведений поэта. Широко и всесторонне изучаются божественные, суфийские, любовные мотивы, а также элементы светской любви проводятся параллели с творчеством классических мастеров азербайджанской литературы - Физули и Вагифа. Далее исследуется поэтика лирики М.Ширвани, т.е., слово и красота значений, разнообразие жанров, вопросы художественных методов.

В этой же главе определяется место «Гиссейи–Ширзад» в развитии эпических стихов, раскрывается концепция добра и зла и определяется основная идея произведения. Особое внимание уделяется моментам, связанным со сказками, дастанами и письменными эпическими памятниками, где рассматриваются также языковые особенности творчества поэта.

**T.K.Badalova**

## The life and poetry of Mahjur Shirvani


## SUMMARY

The thesis is dedicated to the life and creative work of XVIII century Azerbaijani poet Mahjur Shirvani.

The work consists of an introduction, two chapters, conclusion and bibliography.

In the introduction was justified the urgency of the dissertation topic, was investigated the degree of scrutiny, were identified sources, object and subject, purpose and objectives of the study, the theoretical and methodological foundations, and scientific novelty and practical value of the work.

The first part is called "The problems studing of Mahjur Shirvani's poetry" and consists of two stanzas. This part provides a brief overview of the historically - the social situation of Azerbaijan at the end of the XVII century, the beginning of the XVIII century and the main features of the flow of the Azerbaijani literary and artistic thought, and highlights the dark moments of life of the poet, collecting and publishing his literary work and widely commented history research. It should be noted that in this part the poetry of Mahjur Shirvani found in manuscript form is widely discussed.

The second part is called "The poetry of Mahjur Shirvani" and consists of three verses. In this part thinned shades of themes and content of the lyrics of Mahjur Shirvani, disclosed the nature of the concept of "Love", which constitutes the main part of the works of the poet. Widely and thoroughly studied the divine, the Sufi love motifs, as well as the secular aspects of love involved in the study, in a comparative form with the classical masters of Azerbaijan literature: the works of Mahammad Fuzuli and Molla Panah Vagif. The rest of this part widely studied the poetics of the lyrics of Mahjur Shirvani: the word and the beauty of the values, various genres, issues of artistic techniques.

In this part, also the place of "Gissei-Schirzad" is determined in the development of epic poetry, the concept of good and evil is revealed and the piece idea is defined. Also, analyzed the moments of the poem associated with the sources of fairy tales and epic written dastans and monuments, which deals with the peculiarities of linguistic style.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ**

*На правах рукописи*

**БАДАЛОВА ТАХМИНА КЯМРАН кызы**

# ЖИЗНЬ И ТВОРЧЕСТВО МАХДЖУРА ШИРВАНИ

5716.01. – Азербайджанская литература

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени
доктора философии по филологии

**БАКУ – 2013**